# B İ L D İ R İ Ş

**“Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti**

**27.08.2019**

**Hörmətli səhmdar!**

“Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsini rəhbər tutaraq “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti Sizin diqqətinizə çatdırır ki, **11 oktyabr 2019-cu il tarixində saat 15$^{00}$-da, Bakı şəhəri, Salyan Şosesi, 1023 ünvanında, “Ramada Baku” mehmanxanasında** “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbəti Ümumi Yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyinə “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin 2018-ci ilin maliyyə hesabatının təsdiq edilməsi, 2018-cı ilin maliyyə nəticələrinə əsasən dividendin ödənilməsi, 2019-cu ilin 9 ayı üzrə Bankın maliyyə hesabatının nəzərdən keçirilməsi, “Aqrarkredit” BOKT QSC-yə ötürülməsi nəzərdə tutulan, lakin ötürülməyən problemli aktivlərin Bankın balansından silinməsi, “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin səhmdarlarının ümumi yığıncağının əsasnaməsinin təsdiq edilməsi, “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin törəmə investisiya şirkətinin yaradılması, Bankın səhmdarlarının səhmlərinin Bank tərəfindən geri alınması və digər məsələlər daxil edilir.

Qeyd edirik ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-ci maddəsinin 107- 3.1-ci bəndinə əsasən Siz Ümumi Yığıncaqda iştirak hüququnuzu bilavasitə özünüz və ya nümayəndə vasitəsilə həyata keçirə bilərsiniz.

Yığıncaqda özünüz iştirak edəcəyiniz halda, Siz qeydiyyat üçün şəxsiyyətinizi təsdiq edən sənədi təqdim etməlisiniz. Yığıncaqda nümayəndəniz iştirak edəcəksə, qeydiyyat üçün onun tərəfindən adına qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməlidir.

Yığıncağın gündəliyinə çıxarılan məsələ üzrə materiallarla 07.10.2019-cu il tarixdən 08.10.2019-ci il tarixədək saat 10$^{00}$-dan 13$^{00}$-dək Bakı şəhəri, Nizami küçəsi, 67 ünvanında şəxsiyyəti təsdiq edən sənədi təqdim etməklə tanış ola bilərsiniz. Nümayəndə tərəfindən əlavə olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməlidir.

Diqqətinizə çatdırırıq ki, **iclasda iştirak edəcəyiniz təqdirdə, iştirakınızı təsdiq etmək üçün 25.09.2019-cu il tarixinədək 051 206 23 31 telefon nömrəsi ilə Bankla əlaqə saxlamağınız zəruridir.**

**“Azərbaycan Beynəlxalq Bankı” ASC-nin**
**İdarə Heyəti**